**“İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 42.2-ci maddəsinə əsasən **qərara alıram:**

1. “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 9, maddə 872; 2008, 3, maddələr 169,186, 5, maddə 364, 6, maddələr 483, 504, 12, maddə 1057; 2009, 2, maddələr 59, 69, 73, 5, maddə 321, 6, maddə 421; 2010, 2, maddə 80, 3, maddələr 180, 184, 193, 6, maddə 494, 7, maddə 606, 8, maddələr 716, 725, 10, maddə 849; 2011, 6, maddə 512, 9, maddə 792; 2012, 3, maddə 200, 5, maddə 421, 10, maddə 951, 11, maddə 1117, 12, maddə 1238; 2013, 2, maddə 108, 4, maddələr 370, 372, 376, 9, maddələr 1045, 1059, 12, maddə 1520; 2014, 4, maddə 363, 7, maddələr 808, 809, 814, 9, maddə 1066, 11, maddələr 1379, 1425, 12, maddə 1566; 2015, 5, maddələr 523, 534, 6, maddələr 698, 703, 10, maddə 1119) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. inzibati xətalar haqqında işlərə “Bakı Nəqliyyat Agentliyi” publik hüquqi şəxs və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi” publik hüquqi şəxs adından baxmağa səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanla təsdiq edilən Siyahının 1-ci hissəsində nəzərdə tutulmuş mərkəzi və yerli icra hakimiyyəti orqanları həmin hissədə göstərilən vəzifələrə uyğun olaraq inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin siyahılarını iki ay müddətində təsdiq edib öz internet səhifələrində yerləşdirsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 fevral 2017-ci il
1256

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin**

**SİYAHISI**

1. Dövlət qulluğu haqqında qanunvericiliyin şamil edildiyi mərkəzi icra hakimiyyəti orqanları və yerli icra hakimiyyəti orqanları adından:

1.1. dövlət orqanının rəhbəri;
1.2. dövlət orqanı rəhbərinin müavini;
1.3. dövlət orqanı aparatının rəhbəri;
1.4. dövlət orqanı aparatının rəhbərinin müavini;
1.5. dövlət orqanı aparatında şöbə müdiri;
1.6. dövlət orqanı aparatında şöbə müdirinin müavini;
1.7. dövlət orqanı aparatında sektor müdiri;
1.8. baş məsləhətçi;
1.9. böyük məsləhətçi;
1.10. mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri, onların müavinləri, şöbə müdirləri (müdir müavinləri), sektor müdirləri, həmin dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələrinin rəhbərləri, onların müavinləri;
1.11. mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin rəhbərləri, onların müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların *və Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin* rəhbərləri, onların müavinləri *(bu Siyahıda nəzərdə tutulan publik hüquqi şəxslər istisna olmaqla)*, həmin orqanların *və Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin* yerli bölmələrinin

rəhbərləri, onların müavinləri.[1]

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından:

2.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - Məcəllə) 157, 209, *211,* 212.1, *212.4,* ~~227,~~ 266.3, 266.4, 290.1.1 – 290.1.6, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 306, 322.0.2, *322.0.4 (taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə),* 322.0.8, 323, *326-1,* 327.1 – 327.7, 328 – 331, 332.1 – 332.3, 333.1, 334.1, 335.1 – 335.4, 336, 337.1 – 337.4, 338.1 – 338.6, 339.1, 342.1.1 – 342.1.8, ~~342.1.10,~~ 342.1.11, 342.2 – 342.7, 343.1, 343.4, *344, 345, 346, 347, 362.0.1, 352.0.3*, 352.0.6, 352.0.11, 352.0.12, 353.1 – 353.4, 353.6, ~~354.0.1, 354.0.4,~~ 354.0.7, 355 – 358, 428.5, 443.2*, 457-1.1.1, 457-1.1.2, 457-1.2,* 469.1 (ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə), 469.3 (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi növünə münasibətdə), 510, 513, 514, 517.0.1 – 517.0.6, 517.0.9 – 517.0.13, 520, 521, 523, 524, 563.1, 564, 565, 566 (*Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə*), 583 – 586, 588, 589, 590.1, 591, 593 və 597-ci (Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslər, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslər (onların vəzifəli şəxsləri və mühafizəçiləri) istisna olmaqla, digər hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə) maddələrində, *Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Məcəllənin 346-1.1 və 346-1.5-ci maddələrində,* Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq Məcəllənin 350.1, 517.0.7, 517.0.8, 575 və 577-ci maddələrində, habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin *212.5,* 243.0.1 (yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərini pozmaqla torpaq və ya qum ehtiyatlarının əldə edilməsinə münasibətdə), *244-1,* 252, 272, *276-1,* 322.0.1, 322.0.7, *322.0.9, 322.0.10,* 342.1.9, ~~*346,*~~ *346-1.2 – 346-1.4,* 348, 350.2, *352.0.2,* 352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10, *354.0.1 - 354.0.6*, 354.0.8 – 354.0.10, 430.1, 454*, 455.2, 457-1.1.3 və 457-1.1.4-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - daxili işlər naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri və onun müavinləri;[2]

2.2. Məcəllənin *211,* 322.0.2, *322.0.4 (taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə),* 322.0.8, 323, 3*26-1,* 327.1 – 327.7, 329 – 331, 332.1 – 332.3, 333.1, 334.1, 335.1 – 335.4, 336, 337.1 – 337.4, 338.1 – 338.6, 339.1, 342.1.1 – 342.1.8, ~~342.1.10,~~ 342.1.11, 342.2 – 342.7, 343.1, 343.4, *344, 345, 346, 347,* 350.1 (Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq), *352.0.1, 352.0.3*, 352.0.6, 352.0.11, 352.0.12, 353.1 – 353.4, 353.6, ~~354.0.1, 354.0.4,~~ 354.0.7, 355, 356, 428.5, 469.1 (ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə) və 469.3-cü (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi növünə münasibətdə) maddələrində, *Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Məcəllənin 346-1.1 və 346-1.5-ci maddələrində,* habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 322.0.1, 322.0.7, *322.0.9, 322.0.10,* 342.1.9, ~~*346,*~~ *346-1.2 – 346-1.4,* 348, 350.2, *352.0.2,* 352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10, *354.0.1 - 354.0.6* və 354.0.8 – 354.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (inzibati xəta hadisəsi səlahiyyətli vəzifəli şəxs tərəfindən Məcəllənin 124.3-cü maddəsinə uyğun olaraq bilavasitə aşkar edildikdə) – Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri, Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi Məlumat Xidmətinin rəisi, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, ərazi polis orqanlarının dövlət yol polisi idarələrinin, şöbələrinin rəisləri, onların müavinləri, ərazi polis orqanlarının dövlət yol polisi bölmələrinin rəisləri, ərazi polis orqanlarının dövlət yol polisi qruplarının rəhbərləri;[3]

2.3. Məcəllənin 327.1 – 327.5, 328, 329.1, 329.2, 330, *346, 353.2, 469.3-cü maddələrində, Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Məcəllənin* ~~*346.3,*~~ *346-1.1, 346-1.5-ci* maddələrində nəzərdə tutulmuş və foto və ya videoqeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara dair *elektron qərardan Məcəllənin 122.7-ci maddəsində qeyd olunan şikayət* verildikdə, həmin inzibati xətalar haqqında işlərə – Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müvafiq sahəyə cavabdeh müavini, Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi Məlumat Xidmətinin rəisi, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, Bakı şəhər Baş Polis İdarəsi və Bakı şəhərinin rayon polis idarələri (şöbələri) istisna olmaqla, digər ərazi polis orqanlarının dövlət yol polisi şöbələrinin (bölmələrinin) rəisləri, dövlət yol polisi qruplarının rəhbərləri;[4]

2.4. Məcəllənin *211,* 322.0.2, *322.0.4 (taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə),* 322.0.8, 323, 3*26-1,* 327.1 – 327.5, 329 – 331, 332.1 – 332.3, 338.1 – 338.6, 339.1 (fiziki şəxslər barədə), 342.1.1 – 342.1.8, ~~342.1.10,~~ 342.1.11, 342.2, 342.5 – 342.7, 344, *346,* ~~346, 346-1.2 – 346-1.4,~~ 356.1, 469.1 (ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə) və 469.3-cü (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi növünə münasibətdə) maddələrində (foto və ya videoqeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalar istisna olmaqla), ~~*Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Məcəllənin 346, 346-1.2-346-1.4-cü maddələrində,*~~ habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin *322.0.1, 322.0.7, 322.0.9, 322.0.10-cu*~~*, 346-cı*~~ *və 346-1.2 – 346-1.4-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – dövlət yol polisinin yol hərəkətinə nəzarət fəaliyyətinə cəlb edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin, dövlət yol polisi idarələrinin şöbə rəisləri və onların müavinləri, bölmə rəisləri, xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektorları və inspektorları, baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, böyük mühəndisləri və mühəndisləri, ərazi polis orqanlarının dövlət yol polisi şöbələrinin, bölmələrinin, qruplarının baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, inzibati təcrübə üzrə baş inspektorları və inspektorları, böyük mühəndisləri və mühəndisləri, axtarış üzrə baş inspektorları və inspektorları, yol nəqliyyat hadisəsi üzrə baş inspektorları və inspektorları, təbliğat inspektorları, alay komandirləri və onların müavinləri, qərargah rəisləri, bölük komandirləri və onların müavinləri, tağım komandirləri, yol patrul xidməti baş inspektorları və inspektorları;[5]

2.5. Məcəllənin 157, 209, *211,* 212.1, *212.4,* ~~227,~~ 266.3, 266.4, 290.1.1 – 290.1.6, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 306, 357, 358, 443.2, *457-1.1.1, 457-1.1.2, 457-1.2,* 510, 513, 514, 517.0.1 – 517.0.6, 517.0.9 – 517.0.13, 520, 521, 523, 524, 563.1, 564, 565, 583 – 586, 588, 589, 590.1, 591 və 593-cü maddələrində, Nazirliyin fəaliyyət

istiqamətlərinə uyğun olaraq Məcəllənin 517.0.7 və 517.0.8-ci maddələrində, habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin *212.5,* 243.0.1 (yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərini pozmaqla torpaq və ya qum ehtiyatlarının əldə edilməsinə münasibətdə), *244-1,* 252, 272, *276-1,* 430.1, 454, *455.2, 457-1.1.3 və 457-1.1.4-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, nəqliyyatda polis idarələrinin, şöbələrinin, xətt bölmələrinin, məntəqələrinin rəisləri, onların müavinləri;[6]

2.6. Məcəllənin 566-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə ( *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə*) – Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi, onun müavinləri, şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, pasport, qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələrinin, bölmələrinin, qruplarının rəisləri, baş inspektorları və inspektorları;[7]

2.7. Məcəllənin 575-ci və 577-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq) – Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi, onun müavinləri, şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri;

2.8. Məcəllənin 597-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslər, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslər (onların vəzifəli şəxsləri və mühafizəçiləri) istisna olmaqla, digər hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə) – Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin rəisi, şəhər, rayon polis idarələrinin (şöbələrinin) rəisləri, onların müavinləri;

2.9. Məcəllənin 209, *211,* 212.1, *212.4,* 266.3, 266.4, 290.1.1 – 290.1.6, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 357, 358, 443.2, 513, 514, 517.0.1 – 517.0.6, 517.0.9 – 517.0.13, 520, 521, 523, 524, 563.1, 564, 565, 583 – 586, 588, 590.1, 591 və 593-cü maddələrində, Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq Məcəllənin 517.0.7 və 517.0.8-ci maddələrində, habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin *212.5,* 243.0.1 (yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərini pozmaqla torpaq və ya qum ehtiyatlarının əldə edilməsinə münasibətdə), *244-1,* 252, 272, 430.1, 454 və 455.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – polis sahə rəisləri.[8]

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından:

3.1. Məcəllənin 405 (dini qurumlar istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə), 432.1 (fiziki şəxslərə və dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına münasibətdə), 432.4 (qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə münasibətdə) *və 579 – 582-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının *Ədliyyə sahəsində xidmətlər baş idarəsinin* rəisi, onun müavini, regional qurumlarının rəisləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Aparatının *ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri;*[9]

3.2. Məcəllənin 562.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının *Ədliyyə sahəsində xidmətlər baş idarəsinin* rəisi, onun müavini, rayon (şəhər) qeydiyyat şöbələrinin rəisləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Aparatının *ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri, rayon (şəhər) üzrə qeydiyyat məsələləri ilə bağlı yerli qurumlarının rəhbərləri;*[10]

~~*3.3. Məcəllənin 598-ci maddəsində (notariuslara münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri;*~~[11]

*3.4. Məcəllənin 391-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi, onun müavini, Nazirliyin yanında Dövlət notariat arxivinin müdiri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi yanında Dövlət notariat arxivinin müdiri.*[12]

4. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından:

4.1. Məcəllənin 235, 243.0.1 (yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması tələblərinin pozulması hissəsində), 243.0.4, 268, 276, 277, 310 (kiçikhəcmli gəmilərə münasibətdə), 311, 394.0.1 (lisenziya olmadan tikintisinə icazə tələb edilən bina və qurğuların mühəndis-axtarış və ya tikinti-quraşdırma işlərinin aparılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə), *394.0.3, 394.0.4, 394.0.5 (açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulması istisna olmaqla), 394.0.6 (açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulması istisna olmaqla), 394.0.7 (reklam qurğularının tikintisi işləri ilə bağlı Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində ~~isə~~ "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində isə Dənizkənarı Bulvar İdarəsinin göstərişlərinə və qərarlarına əməl edilməməsi istisna olmaqla),* 469.1 (yaşayış binaları, yaşayış evləri və mənzillər istisna olmaqla, digər daşınmaz əmlakın icbari sığortasına və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə), 518, 519, 536 və 543-cü maddələrində, Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq Məcəllənin *233, 243.0.7,* 278, 350.1, 517.0.7, 517.0.8, 542 və 555-ci maddələrində, habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 212.2, *244-1,* 342.1.9 və 348-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – fövqəladə hallar naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri və onun müavinləri;[13]

4.2. Məcəllənin 310 (kiçikhəcmli gəmilərə münasibətdə) və 311-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin rəisi, onun müavinləri;

4.3. Məcəllənin ~~212.2 (iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda),~~ 469.1 (yaşayış binaları, yaşayış evləri və mənzillər istisna olmaqla, digər daşınmaz əmlakın icbari sığortasına və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə), 518, 519 və 536-cı maddələrində, *habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 212.2 və 244-1-ci maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, müvafiq ərazi və regional dövlət yanğın nəzarəti idarələrinin rəisləri, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti İdarəsinin rəisi;[14]

4.4. Məcəllənin 235, *268 və 457-1.1.3-cü (iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda)* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Nazirliyin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi adından, 243.0.1 (yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması tələblərinin pozulması hissəsində), 243.0.4, 276, 277, ~~348 (iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda)~~ *543, iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda 276-1, 348, 457-1.1.4-cü* maddələrində, habelə Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq *233, 243.0.7*, 278, 517.0.7, 517.0.8, 542 və 555-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Nazirliyin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi adından, 350.1 (Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq), 394.0.1 (lisenziya olmadan tikintisinə icazə tələb edilən bina və qurğuların mühəndis-axtarış və ya tikinti-quraşdırma işlərinin aparılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə) və 394.0.3 – 394.0.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Nazirliyin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi adından bu Siyahının 1.10-cu bəndində nəzərdə tutulmuş vəzifəli şəxslər baxırlar.[15]

~~5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi adından:~~ [16]

~~5.0. Məcəllənin 566-cı maddəsində (xidməti və diplomatik pasporta aid hissədə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – xarici işlər naziri, onun müavini, konsulluq idarəsinin rəisi, onun müavini, Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəhbəri, onun müavini, Azərbaycan Respublikasının səfirləri və baş konsulları, Azərbaycan Respublikasının səfirliklərinin və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşları.~~

6. Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikası İqtisadiyyat* Nazirliyi adından:[17]

6.0. Məcəllənin *211 (sahibkarlıq fəaliyyəti (ictimai iaşə, turizm və mehmanxana (o cümlədən mehmanxana tipli digər obyektlər) fəaliyyəti istisna olmaqla) subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə)*, 405 (kommersiya qurumlarına *və publik hüquqi şəxslərə* münasibətdə), 430.1 (iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda), 430.2, *449-1, 460*, 461, 467 *və 545-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – *Dövlət Vergi Xidmətinin rəisi, onun müavinləri, Dövlət Vergi Xidməti Aparatının rəhbəri, onun müavinləri, Dövlət Vergi Xidməti Aparatının struktur bölmələrinin və strukturuna daxil olan qurumların rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin şəhər (rayon) vergilər idarələrinin rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin* rayon vergilər şöbələrinin rəisləri, onların müavinləri.[18]

7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından:

*7.1 Məcəllənin 231.1, 469.3 (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə), 479 (Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq), 480 – 505, 507, 509 və 546-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Komitənin sədri, onun müavinləri, Komitənin Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, onun müavinləri,* ~~*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, onun müavini,*~~ *ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin, gömrük idarələrinin və gömrük postlarının rəisləri və onların müavinləri;*[19]

*7.2. Məcəllənin 469.3 (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə), 484, 487.1.1, 487.1.2, 487.2, 487.3, 488, 490, 493, 499.1.1, 499.1.2 və 500-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Komitənin Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin şöbə (bölmə) rəisləri, ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin idarə, şöbə və bölmə rəisləri, onların müavinləri, gömrük postlarının rəisləri, baş inspektorlar, böyük inspektorlar, müstəntiqlər və təhqiqatçılar.*

8. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti adından:

8.0. Məcəllənin 566 (Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün *icazə vəsiqələrinə münasibətdə*) və 578-ci maddələrində, habelə Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq Məcəllənin 575 və 577-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun müavinləri, Xidmətin Miqrasiya Nəzarəti Baş İdarəsinin rəisi, onun müavini, həmin Baş İdarənin idarələrinin rəisləri, onların müavinləri, müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları, *inspektorları, regional miqrasiya baş idarələrinin (idarələrinin) rəisləri, onların müavinləri, həmin baş idarələrin idarə rəisləri, onların müavinləri, regional miqrasiya baş idarələrinin (idarələrinin) müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları,* inspektorları.[20]

9. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından:

9.1. Məcəllənin 321, 479 (Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq) və 572-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun birinci müavini, *Sərhəd Qoşunlarının Komandanı,* Əlahiddə Sərhəd Diviziyasının komandiri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi, sərhəd dəstələrinin rəisləri, Sərhəd *Nəzarətinin* rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları;[21]

9.2. Məcəllənin 570 və 571-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun birinci müavini, *Sərhəd Qoşunlarının Komandanı,* Əlahiddə Sərhəd Diviziyasının komandiri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi, sərhəd dəstələrinin rəisləri, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları. [22]

10. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından:

10.0. Məcəllənin 597-ci maddəsində (Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə), *habelə öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Məcəllənin 606.2.3-cü, 606.3-cü və 607-ci maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri)~~, *Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi və onun müavini*~~ . [23]

*10-1. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti adından:* [24]

*10-1.0. Məcəllənin 606.2.3-cü, 606.3-cü və 607-ci maddələrində (öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri)~~, Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi və onun müavini~~ .* [25]

~~11. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adından:~~ [26]

~~11.0. Məcəllənin 550-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun müavinləri, Feldyeger Rabitəsi İdarəsinin rəisi, onun müavini.~~

12. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından:

12.0. Məcəllənin 604, 606.2, 606.3 və 607-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Xidmətin rəisi, onun müavinləri, *Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini,* Xidmətin yerli *baş idarə,* idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri~~, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri~~. [27]

13. *Azərbaycan Respublikasının Audiovizual* Şurası adından: [28]

13.0. Məcəllənin *381.8 – 381.11, 381.14 və 428.11-ci maddələrində, habelə audiovizual media subyektlərinə münasibətdə Məcəllənin 381.12 və 381.13-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Şuranın sədri, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri. [29]

*13-1. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi adından:*

*Məcəllənin 381.12 və 381.13-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (audiovizual media subyektləri istisna olmaqla, digər media subyektlərinə münasibətdə) – Agentliyin icraçı direktoru, onun müavini.* [30]

14. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından:

14.1. Məcəllənin ~~429,~~ 436, 472 ~~və 598-ci (kredit təşkilatlarına, lizinq xidmətləri göstərən hüquqi şəxslərə, investisiya şirkətlərinə, investisiya fondlarına *və onların idarəçilərinə*, sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçilərinə, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələrə *və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə* münasibətdə)~~ maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – *İdarə Heyətinin sədri, sədrin müavinləri və digər üzvləri, departament direktorları*, idarə rəisləri; [31]

14.2. Məcəllənin 414 – 427, 428.8, ~~428.9,~~ 430.3, 430.4, 432.4 (banklara münasibətdə), 433.0.2, 435, 438.1, 439 (Palatanın fəaliyyət istiqamətlərinə uyğun olaraq), ~~440,~~ 462 (bank olmayan kredit təşkilatlarına, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə, investisiya fondlarına və onların idarəçilərinə, həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə münasibətdə), 463, 468, 470, 471, 473 – 476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – *İdarə Heyətinin sədri, sədrin müavinləri və digər üzvləri, departament direktorları* , idarə rəisləri, Palatanın Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi. [32]

15. Azərbaycan Respublikasının Mərkəzi Bankı adından:

15.0. Məcəllənin 433.0.1, 434, 439 (Mərkəzi Bankın fəaliyyət istiqamətlərinə uyğun olaraq) *, 439-1, 440* və 457-ci (bank fəaliyyəti sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması, mühafizəsi və dövriyyəsi qaydalarının pozulması ilə əlaqədar inzibati xətalar haqqında işlərə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri, onun müavini. [33]

*16. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından:*

*16.0. Məcəllənin 231.2-ci maddəsində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə), 231.3-cü və 231.4-cü maddələrində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində törədildikdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – İdarə Heyətinin sədri və digər üzvləri, Aparat rəhbəri və onun müavinləri, şöbə müdirləri və onların müavinləri, sektor müdirləri, baş məsləhətçilər və böyük məsləhətçilər.*

*17. Bakı Nəqliyyat Agentliyi adından:*

*17.0. Məcəllənin 319.1-ci, 320.1-ci və 322.0.3–322.0.6-cı maddələrində (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə), 346-1.1-ci, 346-1.5-ci və 350.2-ci maddələrində (Bakı şəhərinin inzibati ərazisində), habelə iş üzrə icraat Agentliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 322.0.1-ci və 322.0.7-ci maddələrində (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə), ~~346-cı,~~ 346-1.2 – 346-1.4-cü, 352.0.2-ci, 354.0.1-ci, 354.0.4-cü, 354.0.5-ci və 354.0.8-ci maddələrində (Bakı şəhərinin inzibati ərazisində) nəzərdə tutulmuş inzibati*

*xətalar haqqında işlərə –İdarə Heyətinin sədri, onun müavinləri, Aparat rəhbəri və şöbə müdirləri.*[34]

*18. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin adından:*[35]

*18.0. Məcəllənin 213.0.3-cü, 213.0.4-cü (tibb müəssisələrində yayımlanmasına münasibətdə), 215.2-ci, 215.3-cü maddələrində (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə), 214-cü maddəsində, 469.1-ci (icbari tibbi sığortaya münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - İdarə Heyətinin sədri, sədrin müavinləri, İdarə Heyətinin üzvləri, departament, idarə, xidmət, filial və nümayəndəliklərinin rəhbərləri, şöbə müdirləri, koordinatorlar, baş məsləhətçilər.*[36]

*19. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi adından:*

*19.0. iş üzrə icraat Agentliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 352.0.4, 352.0.5, 352.0.7 - 352.0.10, 354.0.2, 354.0.3, 354.0.5, 354.0.6,-354.0.8-354.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - İdarə Heyətinin sədri, onun müavinləri, Aparat rəhbəri, Hüquqi Təminat və İnsan Resursları İşinin Təşkili İdarəsinin rəisi, tabeliyindəki 'Avtomobil Yollarının Mühafizə Xidməti' publik hüquqi şəxsin direktoru, onun müavinləri, şöbə rəisləri, onların müavinləri, bölgə və bölmə rəisləri.*[37]

~~*20. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından:*~~ [38]

~~*20.1. Məcəllənin 598-ci (lombardlara və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən şəxslərə münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – İdarə Heyətinin sədri və onun müavinləri.*~~ [39]

*21. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi adından:* [40]

*21.0. Məcəllənin 231.2-ci maddəsində (Şuşa şəhəri ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə), 231.3-cü və 231.4-cü maddələrində (Şuşa şəhərinin ərazisində törədildikdə), habelə iş üzrə icraat İdarənin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 352.0.2-ci, 352.0.8 – 352.0.10-cu, 354.0.2-ci, 354.0.3-cü, 354.0.8 – 354.0.10-cu maddələrində (Şuşa şəhərinin ərazisində) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – İdarənin icraçı direktoru və onun müavinləri.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 21 iyun 2017-ci il tarixli **1489** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 25 iyun 2017-ci il, 136, “Xalq” qəzeti, 4 iyul 2017-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1105 )**
2. 6 sentyabr 2017-ci il tarixli **1591** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 sentyabr 2017-ci il, 193 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1638)**
3. 2 noyabr 2017-ci il tarixli **1645** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 noyabr 2017-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1984)**
4. 20 fevral 2018-ci il tarixli **1835** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti 21 fevral 2018-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 199)**
5. 6 mart 2018-ci il tarixli **1865** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 mart 2018-ci il, 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 415)**
6. 6 mart 2018-ci il tarixli **1869** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 mart 2018-ci il, 52 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 419)**
7. 7 mart 2018-ci il tarixli **1879** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 mart 2018-ci il, 53 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 429)**
8. 7 may 2018-ci il tarixli **47** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 11 may 2018-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 915)**
9. 10 may 2018-ci il tarixli **59** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 13 may 2018-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 927)**
10. 13 iyul 2018-ci il tarixli **195** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1481)**
11. 29 avqust 2018-ci il tarixli **248** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 avqust 2018-ci il, 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1698)**
12. 7 noyabr 2018-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 noyabr 2018-ci il, 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2242)**
13. 27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289)**
14. 18 dekabr 2018-ci il tarixli **409** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 19 dekabr 2018-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2566)**
15. 25 dekabr 2018-ci il tarixli **440** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2597)**
16. 28 yanvar 2019-cu il tarixli **492** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 29 yanvar 2019-cu il, 22 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 82)**
17. 4 fevral 2019-cu il tarixli **514** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 5 fevral 2019-cu il, 28 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 213)**
18. 12 mart 2019-cu il tarixli **586** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 15 mart 2019-cu il, 60 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 426)**
19. 10 aprel 2019-cu il tarixli **620** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 11 aprel 2019-cu il, 77, Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 620)**

20. 15 aprel 2019-cu il tarixli **630** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 630**)

21. 18 aprel 2019-cu il tarixli **650** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 aprel 2019-cu il, 85 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 649)**

22. 2 may 2019-cu il tarixli **667** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2019-cu il, 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 819)**

23. 23 may 2019-cu il tarixli **710** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 may 2019-cu il, 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 862)**

24. 17 mart 2020-ci il tarixli **962** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 mart 2020-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 238)**

25. 19 mart 2020-ci il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 mart 2020-ci il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 240)**

26. 13 aprel 2020-ci il tarixli **987** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 aprel 2020-ci il, 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 404)**

27. 3 iyul 2020-ci il tarixli **1084** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 iyul 2020-ci il, 127 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 864)**

28. 10 iyul 2020-ci il tarixli **1105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 iyul 2020-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 885)**

29. 17 avqust 2020-ci il tarixli **1138** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 18 avqust 2020-ci il, 162 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1041)**

30. 24 sentyabr 2020-ci il tarixli **1163** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 sentyabr 2020-ci il, 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1153 )**

31. 12 iyun 2021-ci il tarixli **1351** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 566)**

32. 13 iyul 2021-ci il tarixli **1390** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 iyul 2021-ci il, 146 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 724)**

33. 13 iyul 2021-ci il tarixli **1394** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 iyul 2021-ci il, 146 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 728)**

34. 29 dekabr 2021-ci il tarixli **1542** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1407)**

35. 30 dekabr 2021-ci il tarixli **1558** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1423)**

36. 5 aprel 2022-ci il tarixli **1652** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 aprel 2022-ci il, 70 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 313)**

37. 13 aprel 2022-ci il tarixli **1662** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 aprel 2022-ci il, 76, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 4, maddə 323)**

38. 29 avqust 2022-ci il tarixli **1836** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 avqust 2022-ci il, "Xalq" qəzeti, 30 avqust 2022-ci il, 185 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8 maddə 896)**

39. 27 oktyabr 2022-ci il tarixli **1869** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 27 oktyabr 2022-ci il, "Xalq" qəzeti, 28 oktyabr 2022-ci il, 236 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 10 maddə 1146)**

40. 28 noyabr 2022-ci il tarixli **1890** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, "Xalq" qəzeti, 29 noyabr 2022-ci il, 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 11, maddə 1267)**

41. 28 noyabr 2022-ci il tarixli **1892** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, "Xalq" qəzeti, 29 noyabr 2022-ci il, 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 11, maddə 1269)**

42. 15 dekabr 2022-ci il tarixli **1904** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 dekabr 2022-ci il, "Xalq" qəzeti, 16 dekabr 2022-ci il, 275 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1414)**

43. 30 dekabr 2022-ci il tarixli **1952** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 30 dekabr 2022-ci il, "Xalq" qəzeti, 31 dekabr 2022-ci il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1462)**

44. 30 dekabr 2022-ci il tarixli **1954** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1464)**

45. 31 yanvar 2023-cü il tarixli **2009** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 1 fevral 2023-cü il, 22 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 97)**

46. 1 fevral 2023-cü il tarixli **2018** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 2 fevral 2023-cü il, 23 )**

47. 30 mart 2023-cü il tarixli **2079** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 30 mart 2023-cü il, "Xalq" qəzeti, 31 mart 2023-cü il, 65 )**

48. 8 aprel 2023-cü il tarixli **2087** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Xalq" qəzeti, 9 aprel 2023-cü il, 73 )**

**49.** [25 aprel 2023-cü il tarixli **2120** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 26 aprel 2023-cü il, 84**)

**50.** 23 may 2023-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 23 may 2023-cü il, "Xalq" qəzeti, 24 may 2023-cü il, 108**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] [17 avqust 2020-ci il tarixli **1138** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 avqust 2020-ci il, 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1041**) ilə "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1.11-ci bəndinə hər iki halda "**orqanların**" sözündən sonra "**və Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.

[15 dekabr 2022-ci il tarixli **1904** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 dekabr 2022-ci il, "Xalq" qəzeti, 16 dekabr 2022-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1414**) ilə "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1.11-ci bəndinə ikinci halda "müavinləri" sözündən sonra **"(bu Siyahıda nəzərdə tutulan publik hüquqi şəxslər istisna olmaqla)"** sözləri əlavə edilmişdir.

[2] [2 noyabr 2017-ci il tarixli **1645** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 noyabr 2017-ci il, 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1984**) ilə "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci və 2.2-ci bəndlərində "**322.0.7,**" rəqəmlərindən sonra "**322.0.9, 322.0.10,**" rəqəmləri əlavə edilmişdir.

